AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

## NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏNİN NƏTİCƏSİNƏ DAİR

# İLLİK HESABAT 2024

**AZƏRBAYCAN RESPUBLİKASI**

**NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI**

# İLLİK HESABAT 2024

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2025-ci il 17 sentyabr tarixli, 721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın 8.1.1-ci bəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır.**

AZE 1016, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40,
Hökumət evi
www.nmdk.gov.az
info@nmdk.gov.az
(994 55) 600-08-02
(994 70) 400-08-02
(994 12) 498-58-82
(994 12) 498-25-28
(994 12) 493-35-74

**802**
**Qaynar xətt:**



*"Narkotik maddələrin qeyri-qanuni dövriyyəsi bu gün üçün də, gələcək üçün də həqiqətən bəşəriyyətə təhlükə doğuran amillərdən biridir. "*

***Heydər Əliyev***
***Ümummilli Lider***



*"Azərbaycanda narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir."*

***İlham Əliyev***

*Azərbaycan Respublikasının Prezidenti*

# MÜNDƏRİCAT


*Giriş* 4

*Təşkilati tədbirlər* 6

*Normativ hüquqi bazanın təkmilləşdirilməsi* 11

*Beynəlxalq əməkdaşlıq* 13

*Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönələn tədbirlər* 16

*Hüquq mühafizə orqanları tərəfindən görülmüş işlər* 19

*Dünyada narkotiklərlə bağlı vəziyyətə dair təhlil* 38

*Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi və müalicəsi, bu sahədə aparılan tədqiqatlar* 40

*Narkomanlığa qarşı mübarizə sahəsində təbliğat, profilaktika və monitorinq işinin təşkili* 49

# GİRİŞ

Azərbaycan Respublikasında sistemli və kompleks yanaşmanı təmin edən məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyət nəticəsində dövlət siyasətinin prioritet istiqamətlərindən olan narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri ölkəmizdə həyata keçirilməkdə olan siyasi, sosial-iqtisadi və hüquqi islahatlara uyğun olaraq daha intensiv xarakter almışdır.

Aparılan islahatlar nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıqla bağlı problemlərin həlli, insanların sağlamlığının, rifahının, milli-mənəvi dəyərlərin, vətənpərvər və sağlam gəncliyin qorunub saxlanılması ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bu məqsədlə cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, aidiyyəti dövlət orqanlarının müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə qarşılıqlı fəaliyyət göstərməsini, ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsini və kompleks mübarizə tədbirlərinin görülməsini zəruri etmişdir.

Müasir dünyanın əsas problemlərindən biri hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq qlobal xarakter alaraq bəşəriyyətin bu günü və gələcəyi üçün böyük təhlükə yaradır. Bu baxımdan dünya dövlətləri narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının aşkar edilməsində və qanunsuz dövriyyəsinin qarşısının alınmasında, habelə bu fəaliyyət nəticəsində dəyə biləcək zərərlərin minimuma endirilməsi məqsədilə narkomanlığa qarşı mübarizə üsullarını və müalicə metodlarını daha da təkmilləşdirir və beynəlxalq səviyyədə qarşılıqlı əməkdaşlıq imkanlarını artırırlar.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində geniş tədbirləri özündə ehtiva edən proqramlar – Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram” (2000-2006-cı illər üçün), 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007–2012-ci illər üçün)”, 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı” və 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” təsdiq edilmiş və uğurla həyata keçirilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi sahəsində işin təşkilinin və nəzarətin gücləndirilməsi, narkomaniya ilə bağlı müalicə alan şəxslər üzərində daha ciddi müalicə və nəzarət mexanizminin yaradılması, müalicə metodikasının təkmilləşdirilməsi, narkoloji-tibb müəssisələrinin kadr potensialının möhkəmləndirilməsi və maddi-texniki təchizatı vəziyyətinin yaxşılaşdırılması, aidiyyəti qurumların əməkdaşlığının möhkəmləndirilməsi, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə rayon və şəhər komissiyalarının fəaliyyətlərinin səmərəliliyinin artırılması, təbliğat və maarifləndirmə işlərinin daha da gücləndirilməsi və davamlılığının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.

# GİRİŞ

Əməliyyat-axtarış və istintaq, eləcə də narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyət gücləndirilmiş, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işi və uşaq və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işləri genişləndirilmişdir.

2019-2024-cü illər ərzində hüquq mühafizə orqanları tərəfindən müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə edilərək narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə işi gücləndirilməklə, ümumilikdə 47863 fakt aşkarlanmış, onlardan 16458-i narkotik vasitələrin və psixotrop maddələrin satışı, 29148-i narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əldə edilib saxlanılması, 1877-i qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 380-i isə digərləri olmuşdur.

Həmin dövr ərzində 33,5 ton müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən çıxarılmışdır. Onlardan 12,73 tonunu heroin, 15,01 tonunu marixuana, 2,2 tonunu tiryək, 0,33 tonunu həşiş, 0,007 tonunu kokain, 3,23 tonunu isə digər narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları təşkil etmişdir.

Qeyd olunan illər ərzində cinayət məsuliyyətinə 39002 nəfər cəlb olunub. Onlardan 37978 nəfəri kişi, 1024 nəfəri isə qadındır. Cinayət məsuliyyətinə cəlb olunanların 510 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

2019-2024-cü illər ərzində 21464 məhkəmə hökmü və qərarları əsasında ümumilikdə 14,4 ton müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, eləcə də 156291 ədəd narkotik tərkibli çətənə bitkisi müvafiq komissiyalar tərəfindən yandırma üsulu ilə məhv edilmişdir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi sahəsində işin daha səmərəli təşkili və müvafiq komissiyaların işinin daha dəqiq tənzimlənməsi və onların regionlarda fəaliyyətinin hüquqi əsaslarının müəyyən edilməsi üçün mövcud qanunvericilik təkmilləşdirilmişdir.

Göstərilən istiqamətdə fəaliyyətin gücləndirilməsi, yeni üsul və metodların tətbiqi məqsədilə televiziya kanallarında mövzu ilə bağlı çəkilmiş sənədli və bədii filmlərin, həmçinin maarifləndirici proqramların nümayiş etdirilməsi, sosial şəbəkələrin imkanlarından istifadə edilməklə geniş auditoriya üçün nəzərdə tutulmuş maarifləndirici və təbliğat xarakterli materialların yayılması təşkil edilmişdir.

Bundan başqa, əhalinin müxtəlif qrupları, o cümlədən uşaqlar və gənclər, cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar arasında antinarkotik təbliğatın və maarifləndirmə işinin aparılmasını nəzərdə tutan tədbirlər planlarının icrası nəticəsində maarifləndirmə tədbirləri genişləndirilmişdir.

Respublikada aparılan ardıcıl və məqsədyönlü işlər, qəbul edilmiş bir sıra mühüm normativ hüquqi aktlar, həyata keçirilən zəruri institusional tədbirlər qurumlararası əməkdaşlığı daha da möhkəmləndirəcək və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı birgə mübarizə işinə öz töhfəsini verəcəkdir.

# TƏŞKİLATİ TƏDBİRLƏR

2024-cü ilin may ayının 23-də Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsi üzrə Dövlət Komissiyasının iclası keçirilmiş və qarşıda duran vəzifələrin icrası, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində müasir informasiya texnologiyalarının imkanlarından istifadənin genişləndirilməsi, narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə narkoloji müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi və kadrlarla təmin olunması ilə əlaqədar narkoloq və tibbi psixoloqların sayının artırılması, narkomanlıq xəstəliyindən azad olan insanların cəmiyyətə



inteqrasiyası və məşğulluğunun təmin edilməsi üçün aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə əlavə tədbirlərin görülməsi, qeydiyyatda olan narkotik istifadəçilərinin sayının orta səviyyədən yuxarı olduğu Sumqayıt, Gəncə, Lənkəran, Şirvan, Abşeron, Salyan, Yevlax, Sabirabad, Cəlilabad, Xızı rayon və şəhərlərdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı aidiyyəti üzrə kompleks tədbirlər həyata keçirilməsi, qeyri-hökumət təşkilatlarına ayrılan qrant layihələr hesabına narkomaniya əleyhinə effektiv və təsirli yeni sosial çarxların hazırlanması, onların mediada geniş yayılmasının təmin edilməsi istiqamətində zəruri tədbirlərin görülməsi qərara alınmışdır.



Ötən ilin may ayının 14-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Dövlət Komissiyası sədrinin, Audiovizual Şuranın, Medianın İnkişafı Agentliyinin və ölkədə fəaliyyət göstərən aparıcı media subyektlərinin rəhbərlərinin iştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində media subyektləri tərəfindən görülmüş işlərin müzakirəsi üzrə keçirilmiş görüşdə narkomanlığa qarşı təbliğat işinin aparılmasında onlayn medianın və sosial şəbəkələrin imkanlarından geniş istifadə edilməsi, psixoaktiv maddələrdən istifadənin risk amilləri, insan sağlamlığına zərərli təsiri və problemin mahiyyətini ifadə edən xüsusi verilişlərin davamlılığının təmin edilməsi və



sayının artırılması, o cümlədən həmin verilişlərə həkim-narkoloqların cəlb edilməsi, narkotik istifadəçilərinin sayı çox olan rayon və şəhərlər üzrə statistik göstəriciləri əks olunan bölgələrdə jurnalist araşdırmasının aparılması, aidiyyəti dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın daha da gücləndirilməsi, həmçinin qeyri-hökumət təşkilatlarına ayrılan qrant layihələr hesabına effektiv və təsirli yeni sosial çarxların hazırlanması, onların kütləvi informasiya vasitələrində geniş işıqlandırılması ilə əlaqədar zəruri işlərin davam etdirilməsi qərara alınmışdır.



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.23-cü yarımbəndinin icrası ilə əlaqədar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində 2023-cü ildə görülmüş işlərə dair hesabat hazırlanaraq, jurnal formasında nəşr edilmişdir.






“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə və “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 avqust tarixli 173 nömrəli Fərmanının 1.3.1-ci və 1.4.1-ci yarımbəndlərinə əsasən qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının 2024-cü il 20 sentyabr tarixli qərarı ilə yenidən formalaşdırılmışdır.

Bununla yanaşı adı çəkilən Fərmanın 1.3.3-cü və 1.4.3-cü yarımbəndlərinə uyğun olaraq, icra hakimiyyəti orqanları tərəfindən qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarının formalaşdırılmışdır.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.15-ci yarımbəndinə uyğun olaraq, yabanı bitən çətənə bitkilərin təbii biosenozdan sıxışdırılıb çıxarılması, eyni zamanda Dövlət Proqramının 4.4.16-cı yarımbəndinə uyğun olaraq, narkotik tərkibli yabanı bitkilərin inkişafını, yetişməsini və vegetasiyasını əks etdirən geobotaniki xəritələr, tablo və foto albomlar Dövlət Komissiyasının İşçi Qrupunun dəstəyi ilə Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu tərəfindən hazırlanmışdır.

Təqdim olunmuş materillarda respublikanın fərqli bölgələrində narkotik tərkibli yabanı bitkilərin yeni yayılma yerləri, həm də introduksiya olunmuş halda (başqa yerdən gətirilib əkilməsi), o cümlədən vegetasiyaya uyğun olaraq çiçəkləmə dövrü və morfoloji xüsusiyyətləri yer almışdır.

Tərtib olunmuş xəritə, tablo və fotoalbomlar məlumat üçün aidiyyəti dövlət qurumlarına göndərilmişdir.



# NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.4-cü yarımbəndinə uyğun olaraq, normativ hüquqi aktlarda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən şəxsin üzərində hər hansı qanunsuz saxlanılan əşyanın aşkar edilib götürülməsinin prosedur qaydalarını dəqiq müəyyənləşdirəcək dəyişikliyin edilməsi məqsədilə “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 28 iyun 2024-cü il tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 avqust 2024-cü il tarixli, 173 nömrəli Fərmanının 1.3.1. və 1.4.1.-ci yarımbəndlərinə uyğun olaraq, qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının məhv edilməsi ilə əlaqədar külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya yaradılmış, həmçinin Fərmanın 1.3.3. və 1.4.3.-cü yarmbəndlərinə uyğun olaraq, qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının məhv edilməsi ilə əlaqədar az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyaları yenidən formalaşdırılmışdır.

Habelə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növləri, vəzifələri üzrə əmək müqaviləsi bağlanılarkən narkoloji mərkəzlərdə və ya dispanserlərdə qeydiyyatla bağlı arayışın tələb olunması və bu hallarla bağlı inzibati məsuliyyətin müəyyən edilməsinə dair Əmək Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə Qanun və Fərman layihələrinin hazırlanması təmin edilib. Həmin layihələr hazırda razılaşdırılma mərhələsindədir.

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



2024-cü ildə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq davam etdirilmişdir. Bu məqsədlə aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin Narkotiklərlə Mübarizə üzrə 38-ci Beynəlxalq konfransda (IDEC-38), “Qanunsuz narkotik ticarəti ilə məşğul olan şəbəkələrin müəyyən edilməsi, sıradan çıxarılmasının planlaşdırılması və sistem təhlili” mövzusu üzrə təlimdə, BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 67-ci sessiyasında,




Paris Paktı təşəbbüsü çərçivəsində keçirilmiş Transsərhəd Əməkdaşlıq üzrə Ekspert İşçi Qrupunun iclasında, Narkotiklər və Narkotik Aludəçiliyi üzrə Avropa Monitorinq Mərkəzi (NNAAMM) tərəfindən təşkil olunan “Narkotik cinayətkarlığı və bazarlar-strateji təhlil” mövzusunda keçirilmiş təlimdə, Hüquq mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyi (CEPOL) tərəfindən təşkil edilmiş “Saxta, dəyişdirilmiş və sui-istifadə edilən tibbi dərmanlar” mövzusunda seminarda, Avropa İttifaqı Narkotik Agentliyi (EUDA) tərəfindən 27 üzv dövlətin iştirakı ilə keçirilən yeni psixoaktiv maddələr üçün Erkən Xəbərdarlıq Sisteminin (EWS) müzakirəsi ilə bağlı toplantıda, UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin (CASC) 10 illik yubiley plenar görüşündə,



Cinayət Şəbəkəsinin Fəaliyyətinin qarşısının alınması üzrə Qlobal Proqram (GPCD) və BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin Sərhəd İdarəetmə Filialının Sərnişin və Yük Sərhəd Qrupu (PCBT) tərəfindən birgə təşkil olunan Narkotiklərin Dövriyyəsi Şəbəkələrinin Təhlükəli Planlaşdırılması üzrə ikinci regionlararası təlimdə, Demokratiya və İqtisadi inkişaf naminə Təşkilat – GUAM-ın Cinayətkarlığa qarşı Mübarizə üzrə İşçi qrupunun 27-ci görüşündə, Mərkəzi Asiya üzrə Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin (MARİƏM) Milli Əlaqələndiricilər Şurasının iclaslarında,



BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan “Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı” çərçivəsində təlimlərdə,



Avropa Şurasının Narkotik və Asılılıqlar üzrə Beynəlxalq Əməkdaşlıq Qrupunun (Pompidu Qrupu) illik konfransında və digər tədbirlərdə iştirakı təmin edilmişdir.

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

**802**

**Qaynar xətt:**


www.nmdk.gov.az

info@nmdk.gov.az

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.38-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmış "802 qaynar xətt" telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair videoçarxın Bakı, Gəncə və Sumqayıt şəhərlərinin küçə və prospektlərində olan reklam lövhələrində yayımlanması təmin edilmişdir.







Həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə 2024-cü il ərzində ümumilikdə 29563 dəfə yayımlanması, televiziya kanallarında ekspertlərin iştirakı ilə 167 xüsusi verilişin təşkil edilməsi, narkomanlığın zərəri ilə bağlı müəllif süjetlərinin hazırlanması təmin edilmişdir.

Bununla əlaqədar qeyd edilməlidir ki, ötən ildə "802 qaynar xətt" telefon xidmətinə, "055-600-08-02" mobil telefon nömrəsi vasitəsilə "Whatsapp", "070-400-08-02" mobil telefon nömrəsi vasitəsilə isə "Teleqram" hesablarına ümumilikdə 1668 müraciət daxil olmuş, onlardan 154-ü narkotik vasitələrin qanunsuz satışı (57 müraciət əsasında cinayət işləri başlanılıb), 114-ü narkomaniyadan müalicə (60 nəfər stasionar müalicəyə cəlb olunub), 1400-ü isə digər məsələlərlə (təkrar müraciətlər, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olmuşdur. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 268 məktub ünvanlanmış, digər zəruri tədbirlər görülmüşdür.

**2023/2024-cü illər ərzində 802 qaynar xətt telefon xidmətinə daxil olan müraciətlər barədə müqayisəli məlumat**

| | 2023-cü il | 2024-cü il | Fərq | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 1170 | 1668 | +498 | +42,6 |
| Müalicə | 405 | 114 | -291 | 71,8 |
| Satış | 213 | 154 | -59 | -27,7 |
| Digər | 552 | 1400 | +848 | +153,6 |



Beləliklə, “802 qaynar xətt” telefon xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısının alınması məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təşkil edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında cinayət işlərinin başlanılması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin götürülməsi təmin edilmiş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək göstərilmiş, vətəndaşlara mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınmasında vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübirizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəsmi sosial şəbəkə hesablarında (feysbuk, instaqram, yutub, teleqram, twitter) izahat işlərinin aparılması davam etdirilmiş və vətəndaşlar tərəfindən verilən məlumatlar əsasında effektiv nəticələri olan bir çox əməliyyat tədbirləri keçirilmişdir.









# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

2024-cü ildə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 8871 cinayət faktı aşkarlanmışdır. Onlardan 2997-si narkotik vasitələrin qanunsuz satışı, 5639-u narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 229-u qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 6-sı isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

**2024 - cü il ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları**




Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 6 ton 832 kq 879,937 qram narkotik vasitələrin və psixotrop maddələrin 5 ton 711 kq 629,989 qramını marixuana, 543 kq 694,9 qramını heroin, 166 kq 029,64 qramını tiryək, 38 kq 852,443 qramını həşiş, 99,498 qramını kokain, 156 kq 802,42 qramını digər narkotik vasitələr və 215 kq 771,047 qram və 213 ədədini psixotrop maddələr təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 40807 ədəd metadon, 15663 ədəd çətənə bitkisi, 7 kq 598,388 qr və 1232 ədəd həb güclü təsir edən maddə, 2 kq 174,5 qr zəhərli maddə, 330 qr prekursor qanunsuz dövriyyədən götürülmüşdür.

**2023–2024-cü illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr**

| | 2023-cü il | 2024-cü il | Fərq | %-lə |
|---|---|---|---|---|
| **Cəmi** | 7 ton 058 kq 351,541 qr | 6 ton 832 kq 879,937 qr | -225 kq 471,604 qr | -3,2 |
| **Marixuana** | 4 ton 211 kq 298,749 qr | 5 ton 711 kq 629,989 qr | +1 ton 500 kq 331,24 qr | +35,6 |
| **Həşiş** | 53 kq 467,342 qr | 38 kq 852,443 qr | -14 kq 614,899 qr | -27,3 |
| **Tiryək** | 280 kq 681,694 qr | 166 kq 029,64 qr | -114 kq 652,054 qr | -40,9 |
| **Heroin** | 1 ton 954 kq 113,314 qr | 543 kq 694,9 qr | -1 ton 410 kq 418,414 qr | -72,2 |
| **Kokain** | 750,831 qr | 99,498 qr | -651,333 qr | -86,8 |
| **Psixotrop maddələr** | 414 kq 036,956 qr | 215 kq 771,047 qr | -198 kq 265,909 qr | -47,9 |
| **Digər narkotik vasitələr** | 144 kq 002,655 qr | 156 kq 802,42 qr | +12 kq 799,765 qr | +8,9 |

## 2024-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr

99,498 qr
Kokain

38 kq 852,443 qr
Həşiş

156 kq 802,42 qr
Digərləri

166 kq 029,64 qr
Tiryək

215 kq 771,047 qr
Ps. maddə

543 kq 694,9 qr
Heroin

5 ton 711 kq 629,989 qr
Marixuana

## 2024-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr

DTX — 74 kq 220,14 qr

ƏN PX — 111,2 qr

DSX — 1 ton 469 kq 472,722 qr

CƏMİ — 6 ton 832 kq 879, 937 qr

DİN — 4 ton 910 kq 279 qr

DGK — 378 kq 796,875 qr

Təqdim olunan hesabatlar təhlil olunarkən müəyyən edilmişdir ki, ötən il ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş 8644 fakt üzrə qanunsuz dövriyyədən 4 ton 910 kq 279 qr olan narkotik vasitələr və psixotrop maddələr (508 kq 179,8 qr heroin, 147 kq 849,6 qr tiryək, 9 kq 133,3 qr həşiş, 3 ton 892 kq 564 qr marixuana, 156 kq 216,6 qr digər narkotik vasitələr, 196 kq 335,7 qr psixotrop maddələr), 774,9 qr güclü təsir edən maddə, 2 kq 174,5 qr zəhərli maddə çıxarılmış və 15663 ədəd çətənə bitkisi müəyyən edilərək müvafiq tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir.

Bununla yanaşı, Nazirlik tərəfindən 1439,6 hektar sahədə yaş kütləsi 436 ton 265 kq 994 qr olan 2857918 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.






Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aşkar edilmiş 96 fakt üzrə qanunsuz dövriyyədən 378 kq 796,875 qr narkotik vasitələr və psixotrop maddələr (25 kq 570,845 qr heroin, 6 kq 214,597 qr tiryək, 28 kq 755,593 qr həşiş, 314 kq 989,600 qr marixuana, 583,491 qr digər narkotik vasitələr, 2 kq 682,749 qr psixotrop maddələr), habelə 330 qr prekursor, 6 kq 820 qr və 1202 ədəd həb güclü təsir edən maddələr çıxarılmışdır.



Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aşkar edilmiş 2 fakt üzrə qanunsuz dövriyyədən 74 kq 220,14 qr narkotik vasitələr və psixotrop maddələr (74 kq 220,14 qr marixuana) müsadirə edilmişdir.



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən aşkar edilmiş 95 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 469 kq 472,722 qr və 41020 ədəd həb narkotik vasitə və psixotrop maddə (9 kq 897,255 qr heroin, 11 kq 965,443 qr tiryək, 99,498 qr kokain, 963,55 qr həşiş, 1 ton 429 kq 815,249 qr marixuana, 0,629 qr digər narkotik vasitələr, 40807 ədəd həb metadon, 16 kq 731,098 qr və 213 ədəd həb psixotrop maddə), eləcə də 30 ədəd həb və 4,388 qr güclü təsir edən maddə çıxarılmışdır.

Bununla yanaşı, Xidmət tərəfindən 20,7 hektar sahədə yaş kütləsi 22 ton 538 kq olan 51096 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.





Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən aşkar edilmiş 34 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 111,2 qr narkotik vasitə və psixotrop maddə (47 qr heroin, 41 marixuana, 1,7 qr digərləri, 21,5 qr psixotrop maddə) çıxarılmışdır.






## 2024-cü ildə ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin növü və çəkisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 9748 ekspert rəyi və arayış verilmişdir.

| № | Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları | Sayı | Çəkisi |
|---|---|---|---|
| 1. | Marixuana | 3021 | 5 t 085 kq 104,47 qram |
| 2. | Həşiş qatranı | 25 | 28 kq 194,256 qram |
| 3. | Çətənə (kannabis) | 343 | 3 t 526 kq 092,93 qram |
| 4. | Xaşxaş bitkisi | 1 | 475 qram |
| 5. | Sintetik kannabinoidlər (spice) | 1 | 0,53 qram |
| 6. | Heroin | 2226 | 420 kq 93,282 qram |
| 7. | Tiryak | 219 | 90 kq 916,690 qram |
| 8. | Metadon | 288 | 7 kq 255,460 qram |
| 9. | Metamfetamin | 3248 | 170 kq 739,995 qram |
| 10. | Kokain | 3 | 102,5 qram |
| 11. | MDA, MDMA (ekstazi) | 6 | 28,64 qram |
| 12. | Zəhərli maddə | 3 | 3 kq 174,73 qram |
| 13. | Prekursor | 37 | 511,03 qram |
| 14. | Farmpreparatlar:<br>- psixotrop və güclü təsir edən d.p.<br>- digər dərman preparatları | 121<br>13 | psixotrop: 8,34 qram<br>GTE: 1 kq 063,33 qram |
| 15. | Digər maddələr | 193 | müvafiq siyahılara daxil edilmədiyindən bu maddələrin çəkisi üzrə qeydiyyat aparılmamışdır |

Hesabat dövründə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması, beynəlxalq təcrübənin öyrənilməklə müvafiq qanunvericilik aktlarına əlavə və dəyişikliklərə dair praktiki təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Eyni zamanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, hüquq mühafizə orqanları əməkdaşlarının peşə vərdişlərinin daha da inkişaf etdirilməsi istiqamətində “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətləri və aktual problemləri”, “Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin tətbiqinin xüsusiyyətləri” və digər mövzularda təlimlər keçirilmişdir. Həmçinin, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar qanunvericilik və istintaq təcrübəsi” adlı metodik vəsait və “Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyəti, bu sahədə milli və beynəlxalq müstəvidə aktual problemlərin həlli yolları” adlı kitab hazırlanaq dərc edilmişdir.



Ötən ilin 16 aprel tarixində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 1698 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılmış 3 ton 393 kq 752,101 qr, 60189 ədəd metadon həbi müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, 3477 həb və 19341 kapsul güclü təsir edən maddə, o cümlədən 58773 ədəd narkotik xassəli çətənə bitkisi,





eyni zamanda 22 iyul tarixdə 17 cinayət işi üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş 248 kq 293,151 qr müxtəlif növ narkotik vasitələr y andırma yolu ilə məhv edilmişdir.





Həmçinin 56 rayon və şəhərdə qanunvericiliyə uyğun olaraq az və xeyli miqdarda müsadirə edilmiş və 2707 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılmış  55 kq 995,749 qr müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, o cümlədən 49 ədəd çətənə bitkisi rayon və şəhər komissiyaları tərəfindən yandırma yolu ilə məhv edilmişdir.

## Narkotik vasitələrin və psixotrop maddələrin mövcud "qara bazar" qiymətləri

| Narkotik vasitələrin 1 kq dəyəri AZN ilə (minimum/maksimum) | | | |
|---|---|---|---|
| | | 01.01.2025-ci il tarixə olan vəziyyət | |
| | | minumum | maksimum |
| **Topdan** | Tiryək | 6000 | 7500 |
| | Heroin | 20000 | 25000 |
| | Marixuana | 6000 | 12000 |
| | Həşiş | 3500 | 4000 |
| | Kokain | 250000 | 300000 |
| | Metamfetamin | 22000 | 25000 |
| **Pərakəndə** | Tiryək | 1200 | 17000 |
| | Heroin | 40000 | 60000 |
| | Marixuana | 15000 | 30000 |
| | Həşiş | 7000 | 8000 |
| | Kokain | 340000 | 400000 |
| | Metamfetamin | 40000 | 60000 |

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1460,3 hektar sahədə çəkisi 458 ton 803 kq 994 qr olan 2909014 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitki müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.












Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 7316 nəfər cəlb edilmiş, onlardan 16-18 yaşadək 4 nəfər, 18-25 yaşadək 539 nəfər, 26 - 29 yaşadək 1088 nəfər, 30 yaş və ondan yuxarı isə 5685 nəfər təşkil edir. Həmin şəxslərdən 7085-i kişi, 231-i qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 71 nəfəri xarici ölkə vətəndaşıdır.

**2024-cü il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər**



## 2023/2024-cü illər ərzində cinayət məsuliyyətinə cəlb olunanlar barədə müqayisəli cədvəl

| | | 2023 | 2024 | Fərq |
|---|---|---|---|---|
| 1. | Cəmi | 8777 | 7316 | -1461 |
| 2. | 16-18 yaşadək | 16 | 4 | -12 |
| 3. | 18-25 yaşadək | 521 | 539 | +18 |
| 4. | 26-29 yaşadək | 1372 | 1088 | -284 |
| 5. | 30 yaş və ondan yuxarı | 6868 | 5685 | -1183 |
| 6. | İşləməyən və oxumayan | 6124 | 4972 | -1152 |
| 7. | Xarici ölkə vətəndaşları | 100 | 71 | -29 |
| 8. | Qadınlar | 245 | 231 | -14 |
| 9. | Kişilər | 8532 | 7085 | -1447 |
| 10. | Əvvəllər cinayət törətmişlər | 3099 | 2633 | -466 |
| 11. | Əvvəllər xüsusi qeydiyyatda olmuşlar | 27 | 28 | +1 |

Məsuliyyətə cəlb edilmiş 71 xarici ölkə vətəndaşından 30-u İran İslam Respublikası, 14-ü Rusiya, 15-i Türkiyə, 7-si Gürcüstan, 2-si Ukrayna, 1-i Özbəkistan, 1-i Birləşmiş Ərəb Əmirlikləri, 1-i Hindistan vətəndaşı olmuşdur. Xarici ölkə vətəndaşlarından ümumilikdə 279 kq 877,211 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülmüşdür.




2024-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 262 fakt aşkar edilmiş (DİN-69, DGK-96, DSX-95, DTX-2) və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 732 kq 174,637 qr olan narkotik vasitələr və psixotrop maddələr, 40807 ədəd metadon həbi, 1740 ədəd və 48,388 qr güclü təsir edən maddə (DİN-809 kq 706,9 qr, DGK-378 kq 796,875 qr, DSX-1 ton 469 kq 450,722 qr, DTX-74 kq 220,14 qr) çıxarılmışdır.

| 2024 | Qaçaqmalçılıq yolu ilə aşkar edilmiş faktlar | Qrup halında aşkar edilmiş faktlar |
|---|---|---|
| Daxili İşlər Nazirliyi | 69 fakt | 331 fakt |
| Dövlət Gömrük Komitəsi | 96 fakt | 1 fakt |
| Dövlət Sərhəd Xidməti | 95 fakt | 7 fakt |
| Dövlət Təhlükəsizliyi Xidməti | 2 fakt | 2 fakt |
| Cəmi | 262 fakt | 341 fakt |

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 341-i qrup halında (DİN-331, DGK-1, DSX-7, DTX-2) törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 2 ton 673 kq 023,814 qr və 13228 ədəd metadon həbi narkotik vasitə, psixotrop maddə və 280,9 qr güclü təsir edən maddə (DİN-2 ton 400 kq 253,9 qr, DGK-192 qr, DSX-198 kq 357,774 qr və 13228 ədəd metadon, 213 ədəd həb psixotrop maddə, DTX-74 kq 220,14 qr) müsadirə edilmişdir.

| 2023/2024-cü illər ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar | | | | |
|---|---|---|---|---|
| | **2023-cü il** | **2024-cü il** | **Fakt** | **%-lə** |
| **Cəmi** | 10060 | 8871 | -1189 | -11,8 |
| **Satış** | 3141 | 2997 | -114 | -4,6 |
| **Saxlama** | 6629 | 5639 | -1001 | -14,9 |
| **Əkin** | 286 | 229 | -57 | -19,9 |
| **Digərləri** | 4 | 6 | +2 | +50 |

Təhlil göstərir ki, 2023-cü illə müqayisədə ötən il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 1189, qanunsuz satış ilə bağlı faktların sayı 144, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 1001, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 57, qrup halında olan cinayətlərin sayı 20, narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 32, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 225 kq 471,604 qr, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 1461 nəfər, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı isə 29 nəfər azalmışdır.

Bu kateqoriyadan olan digər cinayətlərin sayı 2 vahid, yabanı halda müəyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 155 ton 681 kq artmışdır.

2024-cü il ərzində qanunsuz dövriyyədən müsadirə edilmiş 6 ton 832 kq-dan artıq müxtəlif növ narkotik vasitələrin 5 ton 711 kq-nı (83,6%) marixuana təşkil etmişdir. Onun da 5 ton 008 kq-ı (87,6%) xarici ölkə mənşəli olmuş, 703 kq-ı (12,4%) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində, həyətyanı sahələrdə, istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmişdir.

2023-cü illə müqayisədə 2024-cü il ərzində qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, o cümlədən heroinin çəkisi 1 ton 410 kq 418,414 qr (72,2%), tiryəkin çəkisi 114 kq 652,054 qr (40,9%), həşişin çəkisi 14 kq 614,899 qr (27,3%), kokainin çəkisi 651,333 qr (86,8%), psixotrop maddələrin çəkisi 198 kq 265,909 qr (47,9%) azalmışdır.

2024-cü ilin yanvar- dekabr ayları ərzində qanunsuz dövriyyədən götürülmüş 6 ton 832 kq 879,937 qr narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 166 milyon 95 min AZN kimi qiymətləndirilir.




Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi barədə şəhər və rayonlar üzrə ayrı-ayrılıqda əldə olunan statistik məlumatlara dair interaktiv xəritənin maddi-texniki bazasının gücləndirilməsi davam etdirilmişdir.




Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunda 2024-cü ilə dair hazırlanmış interaktiv xəritə üzrə əldə olunan statistik məlumatlar göstərir ki:

**Bakı iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 4438 fakt aşkar edilmiş və 2023-cü illə müqayisədə cinayət faktlarının sayı 0,1% azalmış;
- qanunsuz dövriyyədən 1 ton 213 kq-dan artıq müxtəlif növ narkotik vasitə müsadirə edilmiş və 2023-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psixotrop maddələrin miqdarı 213 kq çox olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 3240 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2023-cü illə müqayisədə 649 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 12850 nəfərdir.

**Abşeron-Xızı iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 1044 fakt aşkar edilmiş və 2022-ci illə müqayisədə cinayət faktlarının sayı 19,3% azalmış;
- qanunsuz dövriyyədən 384 kq-dan artıq müxtəlif növ narkotik vasitə götürülmüş və 2023-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psxiotrop maddələrin həcmi 189 kq az olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 996 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2023-cü illə müqayisədə 1 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 5447 nəfərdir.

**Lənkəran-Astara iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 559 fakt aşkar edilmiş və 2023-cü illə müqayisədə cinayət faktlarının sayı 31,8% azalmış;
- qanunsuz dövriyyədən 1 ton 920 kq-dan artıq müxtəlif növ narkotik vasitə çıxarılmış və 2023-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psixotrop maddələrin miqdarı 69 kq-dan çox olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 513 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2023-cü illə müqayisədə 239 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 5255 nəfərdir.

**Şirvan-Salyan iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 493 fakt aşkar edilmiş və 2023-cü illə müqayisədə cinayət faktlarının sayı 24,9% azalmış;
- qanunsuz dövriyyədən 451 kq-dan artıq müxtəlif növ narkotik vasitə götürülmüş və 2023-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psixotrop maddələrin həcmi 111 kq-dan çox olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 460 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2023-cü illə müqayisədə 206 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 3664 nəfərdir.

2024-cü il ərzində hüquq mühafizə orqanları və Səhiyyə Nazirliyi tərəfindən təqdim olunmuş məlumatlar əsasında şəhər və rayonlar üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınan cinayət faktları, həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələr, narkotiklərlə bağlı məsuliyyətə cəlb edilən şəxslər, narkotik istifadəçiləri və 1000 nəfərə düşən narkomanların sayı barədə;

| Rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkomanların sayı |
|---|---|---|---|---|---|
| Binəqədi | 854 fakt | 257 kq 999,4 qr | 521 nəfər | 1407 nəfər | 5 nəfər |
| Xətai | 477 fakt | 210 kq 154,3 qr | 300 nəfər | 1097 nəfər | 4 nəfər |
| Xəzər | 352 fakt | 135 kq 116,1 qr | 368 nəfər | 1117 nəfər | 5 nəfər |
| Qaradağ | 125 fakt | 368 kq 247,3 qr | 83 nəfər | 631 nəfər | 5 nəfər |
| Nərimanov | 252 fakt | 85 kq 261,7 qr | 181 nəfər | 649 nəfər | 4 nəfər |
| Nəsimi | 352 fakt | 134 kq 404,5 qr | 335 nəfər | 1181 nəfər | 5 nəfər |
| Nizami | 352 fakt | 73 kq 029,8 qr | 306 nəfər | 731 nəfər | 4 nəfər |
| Pirallahı | 14 fakt | 4 kq 028,1 qr | 14 nəfər | 98 nəfər | 5 nəfər |
| Sabunçu | 430 fakt | 242 kq 132,5 qr | 333 nəfər | 1942 nəfər | 6 nəfər |
| Səbail | 217 fakt | 52 kq 500,5 qr | 126 nəfər | 473 nəfər | 5 nəfər |
| Suraxanı | 611 fakt | 151 kq 908,6 qr | 365 nəfər | 1543 nəfər | 7 nəfər |
| Yasamal | 402 fakt | 250 kq 836,9 qr | 308 nəfər | 1981 nəfər | 10 nəfər |
| **Cəmi** | **4438 fakt** | **1 ton 965 kq 619,7 qr** | **3240 nəfər** | **12850 nəfər** | |

| Şəhər və rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkoman- |
|---|---|---|---|---|---|
| Lənkəran | 152 fakt | 279 kq 121,6 qr | 155 nəfər | 3065 nəfər | 14 nəfər |
| Şirvan | 98 fakt | 25 kq 539,8 qr | 94 nəfər | 1379 nəfər | 16 nəfər |
| Salyan | 99 fakt | 58 kq 965,9 qr | 94 nəfər | 1302 nəfər | 9 nəfər |
| Sumqayıt | 572 fakt | 109 kq 450,8 qr | 519 nəfər | 3891 nəfər | 9 nəfər |
| Astara | 134 fakt | 721 kq 261,7 qr | 90 nəfər | 453 nəfər | 4 nəfər |
| Yevlax | 81 fakt | 26 kq 401,1 qr | 95 nəfər | 844 nəfər | 6 nəfər |
| Abşeron | 439 fakt | 258 kq 273,2 qr | 445 nəfər | 1356 nəfər | 3 nəfər |
| Biləsuvar | 131 fakt | 203 kq 423 qr | 124 nəfər | 260 nəfər | 2 nəfər |
| Gəncə | 301 fakt | 124 kq 976,8 qr | 280 nəfər | 1354 nəfər | 4 nəfər |
| Cəlilabad | 98 fakt | 278 kq 988 qr | 92 nəfər | 875 nəfər | 4 nəfər |
| **Cəmi** | **2105 fakt** | **2 ton 086 kq 401,9 qr** | **1988 nəfər** | **14779 nəfər** | |

| Şəhər və rayonlar | | Qeydiyyatda olan narkotik istifadəçiləri | | |
|---|---|---|---|---|
| | | 2023 | 2024 | Fərq |
| 1. | Bakı şəhəri | 11152 | 12850 | +1698 |
| 2. | Sumqayıt şəhəri | 3692 | 3891 | +199 |
| 3. | Lənkəran şəhəri | 3193 | 3065 | -128 |
| 4. | Salyan rayonu | 1248 | 1302 | +54 |
| 5. | Gəncə şəhəri | 1248 | 1354 | +106 |
| 6. | Şirvan şəhəri | 1233 | 1379 | +146 |
| 7. | Abşeron rayonu | 1172 | 1356 | +184 |
| 8. | Cəlilabad rayonu | 827 | 875 | +48 |
| 9. | Yevlax  şəhəri | 781 | 844 | +63 |
| 10. | Digər şəhər və rayonlar | 11460 | 13574 | +2114 |
| Cəmi | | 36659 | 40490 | +3831 |

## 2019-2024-cü illər ərzində hüquq mühafizə orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri

2019-2024-cü illər ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 33 ton 519 kq 700 qr müxtəlif növ narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmışdır.

## 2019-2024-cü illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr

**DİN - 20 ton 133 kq 777 qr**

**DGK 7 ton 856 kq 617 qr**

**DSX 5 ton 111 kq 043 qr**

**DTX 418 kq 263 qr**

Son 6 il ərzində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 12 ton 732 kq 411,9 qr-nı heroin (37,9%), 15 ton 015 kq 685,989 qr-nı marixuana (44,7%), 2 ton 206 kq 991,64 qr-nı tiryək (6,5%), 327 kq 594,443 qr-nı həşiş (0,9%), 3 ton 230 kq 373,461 qr-nı psixotrop maddələr və digərləri (9,6%), 6 kq 644,498 qr-nı kokain (0,01%) təşkil etmişdir.

## 2019-2024-cü illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




Ümumilikdə hesabat dövrü ərzində (2019-2024) hüquq mühafizə orqanları tərəfindən 47863 fakt aşkarlanmış, onlardan 16458-i (34,4%) narkotik vasitələrin və psixotrop maddələrin satışı, 29148-i (60,9%) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əldə edilib saxlanılması, 1877-si (3,9%) qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 380-i (0,8%) isə digərləri olmuşdur.

## 2019-2024-cü illər ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları



Qeyd olunan illər ərzində cinayət məsuliyyətinə 39002 nəfər cəlb olunub. Onlardan 37978 nəfəri kişi, 1024 nəfəri isə qadındır. Cinayət məsuliyyətinə cəlb olunanların 514 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

| İllər | 16-18 yaş | 18-30 yaş | 30 yaşdan yuxarı | Qadınlar | Xarici ölkə vətəndaşları | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2019 | 14 nəfər | 817 nəfər | 2656 nəfər | 98 nəfər | 99 nəfər | 3487 nəfər |
| 2020 | 5 nəfər | 1059 nəfər | 3169 nəfər | 83 nəfər | 75 nəfər | 4233 nəfər |
| 2021 | 11 nəfər | 1595 nəfər | 4906 nəfər | 136 nəfər | 70 nəfər | 6512 nəfər |
| 2022 | 13 nəfər | 2040 nəfər | 6624 nəfər | 231 nəfər | 99 nəfər | 8677 nəfər |
| 2023 | 16 nəfər | 1893 nəfər | 6868 nəfər | 245 nəfər | 100 nəfər | 8777 nəfər |
| 2024 | 4 nəfər | 1627 nəfər | 5685 nəfər | 231 nəfər | 71 nəfər | 7316 nəfər |
| **Cəmi** | **63 nəfər** | **9031 nəfər** | **29908 nəfər** | **1024 nəfər** | **514 nəfər** | **39002 nəfər** |

2019-2024-cü illər ərzində 21464 məhkəmə hökmü və qərarları əsasında ümumilikdə 14,4 ton müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, eləcə də 156291 ədəd narkotik tərkibli çətənə bitkisi müvafiq komissiyalar tərəfindən yandırma üsulu ilə məhv edilmişdir



# DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL



Narkotiklərin qanunsuz dövriyyəsi və istehsalı beynəlxalq təhlükəsizliyə və əhalinin sağlamlığına əsas təhdid olaraq qalmaqdadır.

BMT Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ) və müvafiq beynəlxalq araşdırma mərkəzlərinin təqdim etdikləri göstəricilərə görə, dünya miqyasında narkotik vasitələrin qanunsuz dövriyyəsinin illik həcmi təxminən 650 milyard ABŞ dolları (dünya üzrə ÜDM-nin təxminən 1%-i) təşkil edir.

BMTNCİ tərəfindən hazırlanan Ümumdünya Narkotiklər Hesabatının 2024-cü ildə nəşr edilmiş buraxılışına əsasən, Cənubi Amerika və Cənub-Şərqi Asiya regionu qanunsuz narkotik istehsalı və dövriyyəsinin əsas mərkəzləri olaraq qalmışdır.

Qeyd edək ki, tiryək istehsalında ən böyük pay sahibləri Əfqanıstan, Myanma və Meksika kimi ölkələrdir. 2022-ci ilin aprel ayında Əfqanıstanda tiryək istehsalına qadağa qoyulması ilə 2023-cü ildə əvvəlki illə müqayisədə Əfqanıstanda narkotik istehsalı 95% azalmış, Myanmada isə tiryək istehsalı əksinə 36% artmışdır. Beləliklə, 2023-cü ildə qlobal tiryək istehsalında 74% azalma müşahidə olunmuşdur.

Bununla belə, Əfqanıstanda narkotik vasitələrin becərilməsinə qoyulan qadağa onun qanunsuz ticarətinin qarşısını almamış, əksinə qiymətlərin 3-4 dəfə artmasına səbəb olmuşdur. Eyni zamanda, becərilmə tələb etməyən metamfetamin və bu tipli sintetik tərkibli narkotiklərin istehsalında artım müşahidə olunmuşdur.

BMT tərəfindən monitorinq aparılmış son illər ərzində dünyada kokain istehsalında tiryəkdən fərqli olaraq ciddi artım tempi müşahidə olunmaqdadır. 2022-ci ildə dünya üzrə kokain istehsalı 2700 ton səviyyəsində və kokain becərilən ərazilər isə 355000 hektar müəyyən edilmişdir. Dünyada kokain istehsalının ən böyük pay sahibləri Latın Amerikası ölkələri, xüsusilə Kolumbiya, Peru və Boliviya olmaqda davam edir. Kokainin qeyri-qanuni ixrac olunduğu əsas bazarları isə Şimali Amerika ilə yanaşı, Qərbi və Mərkəzi Avropa ölkələridir. Dünya ölkələrinin 90%-i kokainin müsadirəsi halları ilə bağlı məlumat vermişdir.

BMTNCİ-nin hesabatına əsasən, dünyada narkotik istifadəçilərinin sayı artaraq 292 milyona çatmışdır. Kannabis ən çox istifadə olunan narkotik vasitə olaraq qalmaqdadır. Belə ki, dünya əhalisinin böyük hissəsi (təxminən 228 milyon) kannabis, digər hissəsi isə opioid, amfetamin, kokain və ekstazi istifadəçisidirlər.

Son illərdə sintetik tərkibli narkotik vasitələrin istehsalı artmaqdadır. Mənşəyi bəlli olmayan sintetik vasitələr ölüm hallarının sayının artmasına gətirib çıxarmışdır. Təqdim olunmuş məlumatlara əsasən, təkcə sintetik opioiddən ölənlərin sayı 81 000 nəfərə çatmışdır. metamfetamin və bu tipli sintetik tərkibli narkotiklərin istehsalını artırmışdır.

Həmçinin son illərdə kannabisdən (çətənə) qeyri-tibbi məqsədlərlə istifadə üçün istehsalı və satışının leqallaşdırılması tendensiyası artmışdır. Belə ki, Kanada və ABŞ-nin 27 ştatında kannabisdən qeyri-tibbi məqsədlərlə istifadə üçün istehsalı və satışı tam leqallaşdırılmış, Uruqvayda isə bu proses dövlətin nəzarəti altında həyata keçirilir. Həmçinin Almaniya və Lüksemburqda şəxsi istifadə üçün kannabis becərilməsinə icazə verilir. Kannabisin leqallaşdırılmasına dair qərar qəbul edən ölkələr sırasında Malta, Niderland, İsveçrə, Cənubi Afrika Respublikası və Tailand da yer alır.

Məlum olduğu kimi, informasiya texnologiyalarının inkişafı nəticəsində "darknet" kimi tanınan internet platformalarında qanunsuz narkotik ticarəti artmaqdadır. Belə ki, 2011-ci illə müqayisədə 2023-cü ildə "darknet"də narkotiklərin satışı 10 dəfə artmışdır. Hazırda təxmini hesablamalara görə, narkotik ticarətinin 19%-i məhz "darknet" platformasının üzərinə düşür və ödənişlərin 70%-i kriptovalyutalar vasitəsilə aparılır.

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 91086 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 3213 nəfərindən 1981-nin istifadəçi olması müəyyən edilmiş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmiş və hesabat dövründə 2968 nəfər stasionar müalicədə olmuşdur. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 836 xəstə müalicə alır.




2023-cü ildə qəbul olunmuş yeni statistik hesabat formasına uyğun olaraq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təqdim edilmiş məlumata əsasən 2024-cü il 31 dekabr tarixinə respublika üzrə narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 40490 nəfər təşkil etmişdir. Onlardan 20182 nəfəri opioidlərin, 8611 nəfəri kannabioidlərin, 11697 nəfəri isə eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış şəxslərdir. Həmin şəxslərdən 1005 nəfəri qadındır. 2024-cü ildə dispanser nəzarətinə müvafiq diaqnozla 4967 nəfər götürülmüş, 1136 nəfər isə nəzarətdən çıxarılmışdır.

## Dispanser nəzarətdə və profilaktik qeydiyyatda olanlar

| Məlumatlar | Ümumi say | Dispanser qeydiyyatında olanlar | Profilaktik qeydiyyatında olanlar | Anonimlər |
|---|---|---|---|---|
| Narkomanların ümumi sayı | 40490 | 40490 | 7738 | 96 |
| Qadınların ümumi sayı | 1005 | 1005 | 175 | - |
| Toksikomanların sayı | 2492 | 2492 | 575 | - |
| Eyni zamanda bir neçə narkotik maddə qəbul edənlərin sayı | 11697 | 11697 | - | - |
| Qeydiyyata götürülənlərin sayı | 4967 | 4967 | 2661 | - |
| Qeydiyyatdan çıxarılanların sayı | 1136 | 1136 | 571 | - |

## Respublika Narkoloji Mərkəzdə qeydiyyatda olan narkomanlar




## Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları



## Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları

| Yaş qrupları | Ümumi say | Dispanser qeydiyyatında olan | Profilaktik qeydiyyatında olan |
|---|---|---|---|
| 15-17 yaş | 12 | 12 | 14 |
| 18-24 yaş | 3126 | 3126 | 769 |
| 25-29 yaş | 6709 | 6709 | 1317 |
| 30-34 yaş | 7329 | 7329 | 1529 |
| 35-39 yaş | 6707 | 6707 | 1310 |
| 40-44 yaş | 5504 | 5504 | 1041 |
| 45-49 yaş | 4548 | 4548 | 698 |
| 50-54 yaş | 3650 | 3650 | 516 |
| 55-59 yaş | 1805 | 1805 | 370 |
| 60-64 yaş | 859 | 859 | 133 |
| 65 yaş və yuxarı | 241 | 241 | 41 |

## Qeydiyyatda olan narkotik istifadəçilərinin sayı və onların qəbul etdiyi narkotik vasitələrin növü

| | Şəhər və rayonlar | Qeydiyyatda olan narkotik istifadəçiləri | Opioid qrupuna aid narkotik istifadəçiləri | Kannabinoid qrupuna aid narkotik istifadəçiləri | Eyni zamanda bir neçə narkotik maddənin qəbulu |
|---|---|---|---|---|---|
| 1 | Bakı şəhəri | 12850 | 6273 | 1143 | 5434 |
| 2 | Sumqayıt şəhəri | 3891 | 1943 | 801 | 1147 |
| 3 | Lənkəran şəhəri | 3065 | 2306 | 458 | 301 |
| 4 | Şirvan şəhəri | 1379 | 668 | 435 | 276 |
| 5 | Abşeron rayonu | 1356 | 557 | 286 | 513 |
| 6 | Gəncə şəhəri | 1354 | 698 | 467 | 189 |
| 7 | Salyan rayonu | 1302 | 658 | 441 | 203 |
| 8 | Cəlilabad rayonu | 875 | 625 | 177 | 73 |
| 9 | Yevlax şəhəri | 844 | 445 | 219 | 180 |
| 10 | Digər şəhər və rayonlar | 13574 | 6009 | 4184 | 3381 |
| 11 | **Cəmi** | **40490** | **20182** | **8611** | **11697** |

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə tibbi ekspertiza və pataloji anatomiya birliyi publik hüquqi şəxsinin verdiyi rəsmi məlumata əsasən narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 2016-cı il üzrə 39 nəfər, 2017-ci il üzrə 58 nəfər, 2018-ci il üzrə 90 nəfər, 2019-cu il üzrə 126 nəfər, 2020-ci il üzrə 160 nəfər, 2021-ci il üzrə 258 nəfər, 2022-ci il üzrə 249 nəfər, 2023-cü il üzrə 172 nəfər təşkil etmişdir.

2024-cü il ərzində narkotik vasitələrdən aşırı doza nəticəsində 83-ü kişi, 4-ü qadın olmaqla ümumilikdə 87 nəfər (yanvar ayı-12 nəfər, fevral ayı-16 nəfər, mart ayı-9 nəfər, aprel ayı-12 nəfər, may ayı-4 nəfər, iyun ayı-3 nəfər, iyul ayı-4 nəfər, avqust ayı-3 nəfər, sentyabr ayı-4 nəfər, oktyabr ayı-5 nəfər, noyabr ayı-6 nəfər və dekabr ayı -9 nəfər) vəfat etmişdir ki, onlardan 18-20 yaşadək 1 nəfər, 21-29 yaşadək 12 nəfər, 30-40 yaşadək 31 nəfər, 41-50 yaşadək 24 nəfər, 50-55 yaşadək 7 nəfər, 55 yaşdan yuxarı isə 12 nəfər təşkil edir. 2023-ci illə müqayisədə ötən il aşırı doza nəticəsində ölənlərin sayı 85 nəfər azalmışdır.

Ümumilikdə son 9 il (2016-2024) ərzində narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 1239 nəfər olmuşdur.




**2016-2024-cü illər ərzində narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlər**



## 2014-2024-cü illər ərzində Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkotik istifadəçiləri




2024-cü ildə Azərbaycanda 1171 nəfər İnsan immunçatışmazlığı virusuna (İİV) yoluxmuşdur. Onlardan 72-də (6,1%) İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Bütövlükdə 1987-ci ildən 2024-cü il dekabr ayının sonunadək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 12226 nəfər qeydiyyata götürülmüşdür (11844-ü Azərbaycan vətəndaşı, 382-si əcnəbi). İİV-ə yoluxanların 8724-ü kişi, 3502-si qadındır. Onlardan 3705-də (30,3%) İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir.

Ötən il ərzində antiretrovirus terapiyasına (ART) cəlb olunan pasiyentlərdən 83 nəfəri inyeksion narkotik istifadəçisi olmuşdur. 2024-cü il 31 dekabr tarixinə isə ART-yə cəlb olunmuş İİV-li xəstələrin 2637 nəfəri inyeksion narkotik istifadəçisidir.

## 2024-ci ilin dekabr ayının sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:



## Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1987-31.12.2024)




**Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1987 31.12.2024)**

| Yoluxma yolları | | Azərbaycan vətəndaşları | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| Parenteral yolla | inyeksion narkotik istifadəsi | 3636 | 30,7% | 3555 | 30,0% | 81 | 0,7% | 3705 | 30,3% | 3615 | 29,6% | 90 | 0,7% |
| | Donor qanı | 1 | 0,0% | 0 | 0,0% | 1 | 0,0% | 1 | 0,0% | 0 | 0,0% | 1 | 0,0% |
| | Cəmi : | 3637 | 30,7% | 3555 | 30,0% | 82 | 0,7% | 3706 | 30,3% | 3615 | 29,6% | 91 | 0,7% |
| Cinsi yolla | heteroseksual kontakt | 6869 | 58,0% | 3762 | 31,8% | 3107 | 26,2% | 7110 | 58,2% | 3915 | 32,0% | 3195 | 26,1% |
| | homoseksual kontakt | 705 | 6,0% | 705 | 6,0% | | 0,0% | 723 | 5,9% | 723 | 5,9% | | 0,0% |
| | Cəmi : | 7574 | 63,9% | 4467 | 37,7% | 3107 | 26,2% | 7833 | 64,1% | 4638 | 37,9% | 3195 | 26,1% |
| Anadan uşağa ötürülmə | | 168 | 1,4% | 77 | 0,7% | 91 | 0,8% | 171 | 1,4% | 77 | 0,6% | 94 | 0,8% |
| Naməlum | | 465 | 3,9% | 348 | 2,9% | 117 | 1,0% | 516 | 4,2% | 394 | 3,2% | 122 | 1,0% |
| Cəmi : | | 11844 | 100,0% | 8447 | 71,3% | 3397 | 28,7% | 12226 | 100,0% | 8724 | 71,4% | 3502 | 28,6% |

**2024-ci ilin dekabr ayının sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:**

| YOLUXMA YOLU | Cəmi İİV-ə yoluxanlar | | | | Onlardan Azərbaycan vətəndaşları Cəmi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar |
| Anadan uşağa ötürülməklə | 11 | 5 | 1 | 1 | 11 | 5 | 1 | 1 |
| Heteroseksual kontakt nəticəsində | 931 | 303 | 779 | 239 | 914 | 300 | 767 | 236 |
| Homoseksual kontakt nəticəsində | 141 | | 136 | | 139 | | 134 | |
| Yoluxma yolu naməlum | 16 | 11 | 8 | 7 | 16 | 11 | 8 | 7 |
| İnyeksiyon narkotik istifadəsi nəticəsində | 72 | 2 | 61 | 2 | 72 | 2 | 61 | 2 |
| Cəmi | 1171 | 321 | 985 | 249 | 1152 | 318 | 971 | 246 |

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində narkotik vasitələrin və psixotrop maddələrin təyini məqsədilə 4806 tədqiqat aparılmışdır. Həmin tədqiqatlar zamanı 63 halda tiryək alkaloidləri, 18 halda heroin, 25 halda morfin, 14 halda kodein, 110 halda kannabinoidlər, 119 halda amfetamin, 126 halda metamfetamin, 22 halda metadon, 8 halda tramadol, 3 halda 1,4-benzodiazepin törəmələri (aminazin), 12 halda barbitur turşusu törəmələri, 2 halda fenotiazin törəmələri, 3 halda gabapentin, 2 halda amitriptilin, 1 halda nortriptilin olmaqla ümumilikdə 528 halda narkotik vasitələr və psixotrop maddələr aşkar edilmişdir.

| | |
|---|---|
| Tiryək alkaloidləri | 63 halda |
| Heroin | 18 halda |
| Kodein | 14 halda |
| Morfin | 25 halda |
| Kannaboidlər | 110 halda |
| Amfetamin | 119 halda |
| Metamfetamin | 126 halda |
| Metadon | 22 halda |
| Tramadol | 8 halda |
| 1,4-benzodiazepin törəməsi | 3 halda |
| Barbitur turşusu törəməsi | 12 halda |
| Fenotiazin (aminazin) törəməsi | 2 halda |
| Amitriptilin | 2 halda |
| Nortriptilin | 1 halda |
| Gabapentin | 3 halda |
| Ümumilikdə aşkarlanmış narkotik vasitələr və psixotrop maddələr | 528 halda |

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.15-ci yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən birgə əməkdaşlıq çərçivəsində narkomaniya ilə bağlı sosioloji tədqiqatın aparılması ilə əlaqədar beynəlxalq təcrübə nəzərə alınaraq, "Gənclərin narkomaniya problemlərinin öyrənilməsi" mövzusu üzrə onlayn şəkildə 28 rayon və şəhərdə 14-29 yaş hədlərində olan 7340 nəfər gəncin iştirakı ilə müvafiq sorğunun həyata keçirilməsi təmin edilmişdir.

## Gənclərin yaş kateqoriyaları

| Yaş | Faiz % |
|---|---|
| 14-17 | 34.4 |
| 18-21 | 24.5 |
| 22-25 | 18.4 |
| 26-29 | 22.7 |

Sorğuda iştirak edənlərin 53%-i qadın və 43%-i kişi olmuşdur. Sosioloji sorğunun nəticələrinə əsasən, narkomaniyanın yayılmasının qarşısının alınması üçün ilk növbədə rayon və şəhərdə yeniyetmə və gənclər arasında asudə vaxtın səmərəli təşkil olunması üçün müxtəlif idman yarışlarının, əyləncə proqramlarının, ictimai faydalı əməklə məşğul olmaları üçün şəraitin yaradılması, intellektual bilik yarışmasının, orta və ali təhsil məktəblərində antinarkomaniya mövzularında effektiv tədbirlərin, seminar müşavirələrin və elmi-praktiki konfransların keçirilməsi, o cümlədən məktəblərdə bu sahə üzrə ixtisaslaşmış ekspertlərin iştirakı ilə müəllim-valideyn görüşlərinin təşkil edilməsinin zərurliyi qeyd edilmişdir.

## Sizcə, narkomaniyanın qarşısının alınması və həlli üçün hansı tədbirlər daha effektivdir?

| Effektiv tədbirlər | Faiz % |
|---|---|
| Xüsusi konsertlər, festivallar | 4,8 |
| Bədən tərbiyəsi və idman tədbirləri | 8,7 |
| Televiziyada tematik proqramlar və filmlər | 6,4 |
| İnternetdə məqalələr, ixtisaslaşmış saytlar | 5,6 |
| Təhsil müəssisələrində mühazirələr və söhbətlər | 10,1 |
| Gənclərlər işin genişləndirilməsi | 13,3 |
| Narkologiya üzrə mütəxəssisin şagirdlərin, tələbələrin valideynləri ilə söhbəti | 9,6 |
| Keçmiş narkomanların çıxışları | 8,2 |
| Psixoloq, psixoterapevt xidmətlərinin əlçatanlığı | 10,4 |
| Narkotiklərlə əlaqəli cinayətlərə görə cəzaların sərtləşdirilməsi | 10,1 |
| Narkomanların məcburi müalicəsi | 10,5 |
| Narkotiklərin leqallaşdırılması (müəyyən miqdarda sərbəst əldə etmə imkanı) | 2,2 |
| Digər | 0,1 |

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.17-ci yarımbəndinə əsasən, qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mənbəyinin və nümunələrarası əlaqələrinin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində hüquq mühafizə orqanları tərəfindən təqdim olunmuş 369 fakt üzrə marixuananın, 20 fakt üzrə çətənənin, 25 fakt üzrə heroinin, 1 fakt üzrə metadonun, 240 fakt üzrə metamfetaminin eyniləşdirici ekspertiza tədqiqatları aparılmışdır.

Həmçinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 9748 ekspert rəyi və arayış verilmişdir.

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ



2024-cü ilin sonuna penitensiar müəssisələrdə saxlanılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məhkum olunmuş şəxslərin sayı 10149 nəfər, onlardan məhkəmələr tərəfindən narkomaniyadan məcburi müalicə təyin edilmişlərin sayı isə 6878 nəfər təşkil etmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.3.5-ci yarımbəndinə əsasən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması məqsədilə onlayn narkotik ticarəti ilə əlaqəli şübhəli hallara dair banklardan Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə 5 hesabat daxil olmuşdur. Müvafiq hesabatların ətraflı təhlilinin nəticələri əsasında narkotik vasitələrin onlayn satışını təşkil edən mütəşəkkil dəstələrin müəyyən olunduğu 5 iş üzrə zəruri məlumatlar Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim edilmişdir.

Gənclər arasında antinarkotik təbliğat işinin daha da gücləndirilməsi, maarifləndirmə tədbirlərinin sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsi məqsədilə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Dövlət Komissiyasının İşçi Qrupunun 2024-cü ili əhatə edən birgə Tədbirlər Planı çərçivəsində mövzuya dair interaktiv təlimlərin, müxtəlif həştəqlərlə sosial aksiyaların, “Sağlamlıq naminə mübarizədə bizdən biri ol!” devizli marafonun keçirilməsi və televiziyada işıqlandırılması təmin edilmiş, hesabat dövründə ümumilikdə 16 birgə tədbir həyata keçirilmişdir.










**“Sağlamlıq naminə mübarizədə bizdən biri ol!” devizi altında qaçış idman növü üzrə marafon;**





Tədbirlər Planına uyğun olaraq ölkə üzrə narkomanlıqla mübarizə sahəsində ictimai maarifləndirmə tədbirlərini gücləndirmək və sağlam həyat tərzini təbliğ etmək məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış maarifləndirici bukletlər, yaddaş kitabçaları paylanılıb, müəyyən izahat lar verilib.






Narkomanlıqla mübarizə sahəsində interaktiv təlimlərin, mövzuya dair dəyirmi masaların təşkili və tədbirlərin televiziyada işıqlandırılması təmin edilib.






Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.9-cu yarımbəndinə müvafiq olaraq, Daxili İşlər Nazirliyinin, Səhiyyə Nazirliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrinin iştirakı ilə cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında antinarkotik təbliğat işinin gücləndirilməsi, penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Dövlət Komissiyasının İşçi Qrupu ilə imzaladığı tədbirlər planına uyğun olaraq 11 maarifləndirmə tədbiri həyata keçirilmişdir.









Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.24-cü yarımbəndinə müvafiq olaraq, Dövlət Komissiyasının İşçi Qrupu və Gənclər Fondu arasında antinarkotik təbliğat işinin gücləndirilməsi məqsədilə imzalanmış birgə Tədbirlər Planına əsasən Daxili İşlər Nazirliyinin və Səhiyyə Nazirliyinin nümayəndələrinin iştirakı ilə gənclər təşkilatlarının könüllülərinə təlimlərin keçirilməsi,






valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün və inteqrasiya təlimli internat məktəblərindən məzun olmağa hazırlaşan şagirdlər arasında təlim,





Şamaxı rayonunda təşkil edilən “Yay Fest”də iştirak edən gənclər arasında təlim,






“Səyyar Gənclər Xidməti” layihəsi çərçivəsində görüşlərin keçirilməsi təmin edilmiş və ümumilikdə təşkil edilən 53 birgə tədbirə 9600 yeniyetmə cəlb edilmişdir.






# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Səyyar Gənclər Xidməti layihəsi çərçivəsində “Gənclər siyasəti və dövlətçilik”, “Zərərli vərdişlərə yox deyək”, “Peşə seçimi və karyera” və “Sağlam və təhlükəsiz həyat” mövzularında təlim sessiyaları keçirilib.








Bununla yanaşı gənclər “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilmiş sərgi, süni intellekt alətləri ilə yaratdıqları təsvirlər və rəsm əsərləri tanış olub, daha sonra praktiki şəkildə “CV” yazılma qaydası öyrəniblər.




Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.31-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Audiovizual Şurası və Dövlət Komissiyasının İşçi Qrupunun birgə əməkdaşlığı çərçivəsində narkomanlıq və onun fəsadları barədə mediada daha dolğun məlumatların, müəllif yazılarının hazırlanması məqsədilə narkomanlığın spesifik cəhətləri ilə bağlı 20-dən çox audiovizual media subyektinin nümayəndələri üçün 2024-cü il 24 dekabr tarixində təlim k eçirilmişdir.






Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.34-cü yarımbəndinə müvafiq olaraq, hesabat dövründə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun birgə təşkilatçılığı ilə narkotik asılılıq probleminə dair biliklərin, bacarıqların və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Lənkəran, Salyan, Biləsuvar, Cəlilabad, Masallı şəhər və rayonları üzrə mədəniyyət müəssisələrinin gənclərlə işləyən mütəxəssisləri üçün təlimlər keçirilmişdir.










## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.17-ci yarımbəndinə uyğun olaraq, Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən FHN-in Akademiyasında, Azərbaycan Dövlət İqtisad Universitetində, Bakı Ali Neft Məktəbində, Bakı Avrasiya Kollecində, İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində narkomanlıq probleminə dair tələbələr üçün ictimai mühazirə və seminar lar keçirilmişdir.






Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.18-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun birgə təşkilatçılığı ilə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın daha da gücləndirilməsi və birgə tədbirlərin həyata keçirilməsi məqsədilə narkomanlığa qarşı mübarizə sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının layihə rəhbərləri üçün 2024-cü il 17 dekabr tarixdə təlim keçirilmişdir.




Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.25-ci yarımbəndinə müvafiq olaraq, Gənclər və İdman Nazirliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun birgə təşkilatçılığı ilə şagird və tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı Sabunçu Gənclər Evində, Yevlax Gənclər Evində, Şirvan Gənclər Evində, Qaradağ Gənclər Evində və Lənkəran Gənclər Evində intellektual müsabiqələr təşkil edilmişdir.






Müsabiqələrdə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun, Gənclər və İdman Nazirliyinin, Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin nümayəndələri çıxış edərək, gənclərin narkotik asılılıq probleminə dair biliklərinin artırılması məqsədilə narkotik vasitələrdən istifadənin risk amilləri, psixoaktiv maddələrin xüsusiyyətləri və onların sağlamlığa zərərli təsiri, narkotik asılılığın formalaşma mərhələləri, antinarkotik təbliğatın vacibliyi və narkomanlığa qarşı mübarizə üsulları barədə təqdimat formatında interaktiv təlim təşkil edilmişdir. Təlimlərin nəticəsi olaraq, intellektual müsabiqə təşkil edilməsi üçün şagird və tələbələrin iştirakı ilə hər komanda üzrə 5 nəfər olmaqla 6 komanda formalaşdırılıb və 3 mərhələdən ibarət suallar təqdim olunmuşdur. Maraqlı mübarizə şəraitində keçən müsabiqədə qaliblər Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və Gənclər və İdman Nazirliyinin birgə hazırladığı diplomlarla mükafatlandırılmış, həmçinin digər iştirakçılara sertifikatlar təqdim edilmişdir.






Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.18-ci və 4.4.26-cı yarımbəndlərinin icrası məqsədilə, Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti qurumların mütəxəssisləri cəlb edilməklə Abşeron rayonunun ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri və məktəb psixoloqları üçün "Orta ümumtəhsil məktəblərində narkomaniyaya qarşı mübarizə mexanizmləri" mövzusunda 400 nəfər cəlb edilməklə trenin qlər təşkil edilmişdir.





SOCAR-ın  və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun birgə əməkdaşlığı ilə narkomanlığa qarşı mübarizəyə həsr olunan maarifləndirmə tədbiri keçirilib. Tədbirin məqsədi, strateji əhəmiyyətə malik neft-qaz sənayesi obyektlərinin mühafizəsini təmin edən təhlükəsizlik xidməti əməkdaşlarını, eləcə də SOCAR-ın digər struktur bölmələrindən qatılan iştirakçıları narkomaniyanın fəsadları barədə maarifləndirmək olub. Tədbirdə SOCAR əməkdaşları ilə yanaşı, aidiyyəti podratçı şirkətlərin, həmçinin narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan dövlət qurumlarının nümayəndələri iştirak ediblər.





Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəhər və rayon polis orqanları tərəfindən yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquq-maarifləndirmə və sağlam həyat tərzinin təbliği mövzularında ölkənin şəhər və rayonlarında 1111-dən çox görüş keçirilmişdir.





Eyni zamanda antinarkotik təbliğatın müasir forma və metodlarından istifadə edilməklə 4 videoçarx, 681 post, 266 maarifləndirici material hazırlanaraq mediada, habelə sosial şəbəkələrdə geniş işıqlandırılması, televiziya və radio kanallarına 308 müsahibənin verilməsi təmin edilmişdir.










Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.7-ci yarımbəndinə uyğun olaraq, ümumi təhsil müəssisələrinin şagirdləri arasında sağlam həyat tərzi üzrə maarifləndirmə işinin aparılması məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanmış "Ümumi təhsil müəssisələrinin VIII-IX siniflərində reproduktiv sağlamlıq mövzusunda məşğələlər üzrə metodiki vəsait"də olan "Zərərli vərdişlər: alkoqolizm və narkomaniya" məşğələləri çərçivəsində ölkə ümumtəhsil müəssisələrində şagirdlər üçün müvafiq məlumatlandırma işi ap arılmışdır.





# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən sağlam həyat tərzinin təbliği ilə bağlı “Sağlam həyat tərzi-zərərli vərdişlərin mənfi təsiri”, “Həyatın memarı sən özünsən”, “Narkomaniya və narkobiznesə qarşı mübarizə” və digər mövzularda hazırlanmış məlumatlandırıcı posterlər, həmçinin video çarxlar sosial platformalarda yerləşdirilmişdir.





Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən sağlam həyat tərzinin təşkili məqsədilə respublikanın rayon və şəhərlərində fəaliyyət göstərən olimpiya idman komplekslərində 3395 gəncin iştirakı ilə təşkil edilmiş 33 düşərgədə narkomanlığın profilaktikasına dair sessiyalar keçirilmiş, gənclərin məşğulluğunun təmini və mövcud potensiallarının reallaşdırılması məqsədilə keçirilən qrant müsabiqəsi çərçivəsində gənclər təşkilatları tərəfindən “Region gənclərinin sağlam həyat tərzi forumları”, “Narkotikdən asılılığa qarşı mübarizə”, “Sağlam gənc” region gənclərinin maarifləndirmə marafonu”, “Tələbə gənclər arasında sağlam həyatın təbliği proqramı” və “Gənclər narkotikə yox deyir” şüarı altında regional konfranslar təşkil edilib, o cümlədən nazirliyin tabeliyində olan gənclər evlərinin təşkilatçılığı ilə 9 mindən çox yeniyetmə və gəncin iştirakı ilə “Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları”, "Sağlam gələcək naminə narkomaniyaya yox deyək!", “Gənclərimizi zərərli vərdişlərdən birgə qoruyaq” və digər mövzularda ümumilikdə 165 maarifləndirici tədbir keçirilmişdir.





Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional idarələri tərəfindən yerli polis şöbələri ilə birlikdə narkotik xassəli bitkilərin aşkar olunması üzrə müvafiq işlər həyata keçirilmişdir. Belə ki, Beyləqan rayonunda 2480 ədəd, Sabirabad rayonunda 3120 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir. Eyni zamanda xüsusilə sıx və meşə yaşıllıq massivlərində, yüksək dağlıq və kəskin relyefi ilə xarakterizə olunan ərazilərdə yabanı halda bitən və əkilən narkotik xassəli bitkilərin müəyyənləşdirilməsi məqsədilə dron vasitəsilə əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.



Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti mütəxəssislərin iştirakı ilə Laçın rayonunda 5215 ədəd, Lerik rayonunda 16286 ədəd, Qax rayonunda 21755 ədəd, Tərtər rayonunda 33 ədəd, Tovuz rayonunda 141 ədəd, Qazax rayonunda 7700 ədəd, Beyləqan rayonunda 2480 ədəd, Göygöl rayonunda 2838 ədəd, Zaqatala rayonunda 33150 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolları aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir. O cümlədən nazirliyin aidiyyəti mütəxəssisləri tərəfindən Lənkəran, Cəlilabad, Ağdaş, Yardımlı, Yevlax, Şirvan, Gəncə, Zaqatala, Salyan, Neftçala, Quba, Xaçmaz və Göyçay rayon və şəhərlərdə kənd təsərrüfatı bitkilərinin toxum satışı obyektlərində reydlər keçirilmişdir.



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyindəki birlik, birləşmə, müəssisə və təşkilatlarda hərbi qulluqçuların narkomanlığın cəmiyyətə və insan sağlamlığına vurduğu ağır fəsadlar barədə məlumatlandırılması məqsədilə bölmələrin divar qəzetləri buraxılmış, tərbiyəvi iş saatlarında izahedici söhbətlər aparılmış, müvafiq mövzuda bədii və video filmlər nümayiş etdirilmiş, “Ordu gəncləri narkomaniyaya yox deyir”, “Sağlam həyat tərzi ailə xoşbəxtliyini təmin edən amildir”, “Narkomaniya ağ ölüm deməkdir”, “Narkomaniya insan həyatını qısaldır” və digər mövzularda mühazirələr oxunmuş, narkotik maddələrin qeyri-tibbi istehlakının profilaktikası üzrə xəbərdarlıq vərəqələrinin və metodiki materialların hərbi qulluqçular arasında paylanılması təmin edilmişdir. Hərbi qulluqçuların narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınması istiqamətində peşəkarlığının artırılması məqsədilə komandir (rəis) heyəti, ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar üçün seminar və praktik təlimlər keçirilmişdir.



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.33-cü yarımbəndinə əsasən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən həqiqi hərbi xidmət keçənlər və hərbi çağırışçılar arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat və maarifləndirmə işləri gücləndirilmişdir.






Xarici İşlər Nazirliyi narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizəyə həsr olunmuş aidiyyəti beynəlxalq təşkilatların hesabatlarının və nəzarətdə olan maddələrlə bağlı zəruri məlumatların mütəmadi əsasda aidiyyəti dövlət qurumlarına təqdim etmiş, xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığı davam etdirmiş, onların müvafiq sorğuları cavablandırılmış, qarşılıqlı məlumat mübadiləsi aparılmış və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsində əlaqələndiricilik funksiyasını yerinə yetirmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan mədəniyyət mərkəzlərində, uşaq musiqi məktəblərində, klublarda və kitabxanalarda "Narkomaniya bəşəriyyətin bəlasıdır", "Uçurum", "Narkotik asılılığına son", "Narkomaniyaya qarşı birgə olaq" mövzularında maarifləndirmə xarakterli tədbirlər keçirilmiş, rəsm qalereyalarında "Narkomaniyaya - ağ ölüm", "Narkomaniyaya yox deyək" adlı rəsm sərgiləri, "26 iyun-Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" adlı ənənəvi kitab sərgisi, "Mən narkotiklərə yox deyirəm!" mövzusunda esse müsabiqəsi təşkil edilmişdir. Həmçinin, Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.30-cu yarımbəndinin icrası ilə əlaqədar nazirlik tərəfindən narkotik vasitələrin fəsadlarına dair "Ağ ölüm", "Şeytan və ağ ölüm", "Ağ kəlağayı" adlı teatr tamaşalarının nümayiş olunması təmin edilmişdir.



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin tabeliyində olan Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi tərəfindən 45 nəfər baxımsız və kimsəsiz uşağın sosial reabilitasiyası həyata keçirilmiş, Dövlət Məşğulluq Agentliyi tərəfindən 15-29 yaş qrupunda olan 2040 nəfərin özünüməşğulluq proqramına, 1131 nəfərin "DOST İş Mərkəzi"ndə ictimai işlərə, 9 nəfərin əməkhaqqının birgə maliyyələşməsi proqramına, 7204 nəfərin isə peşə hazırlığına cəlb olunması təmin edilmişdir. Eyni zamanda "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" layihəsi çərçivəsində 5 sosial çarx hazırlanmışdır.






Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Həyatının memarı - Sən özünsən", "Milli-mənəvi dəyərlərimizdən gələcəyə baxış" və s. mövzularında maarifləndirmə və təbliğat xarakterli tədbirlər keçirilmiş, "Narkotik - ölüm tələsidir! Narkomaniyaya yox deyək" adlı məlumatlandırma vəsaitləri hazırlanmış, "Narkotik-ölüm tələsidir!" adlı hazırlanmış video çarx Bakı, Sumqayıt və Gəncə şəhərlərinin prospekt və küçələrində olan monit orlarda yayımlanmışdır.






Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikanın bir çox rayon və şəhərlərində "Zərərli vərdişlərlə mübarizədə mariflәndirmənin rolu" "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları", "Zərərli vərdişlərə qarşı mübarizədə dini icmaların rolu" və digər mövzularda ümumilikdə 55 maarifləndirmə tədbiri keçirilmişdir.





Azərbaycan Respublikası Audiovizual Şurası Dövlət Komissiyasının müvafiq iclaslarında qəbul edilmiş qərarlara əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə 2024-cü il ərzində ümumilikdə 29563 dəfə yayımlanması, televiziya kanallarında ekspertlərin iştirakı ilə 167 xüsusi verilişin təşkil edilməsi, narkomanlığın zərəri ilə bağlı müəllif süjetlərinin hazırlanması təmin edil mişd ir.













## 2024-cü il ərzində televiziya kanallarında yayımlanan xüsusi verilişlərin və sosial çarxların nümayişi barədə məlumat

| | Xüsusi verilişlərin təşkili | Sosial çarxların yayımlanması |
|---|---|---|
| **AZTV** | 3 dəfə | 635 dəfə |
| **İctimai** | 10 dəfə | 798 dəfə |
| **Mədəniyyət TV** | 28 dəfə | 2008 dəfə |
| **Space TV** | 36 dəfə | 529 dəfə |
| **ATV** | 5 dəfə | 2581 dəfə |
| **Xəzər TV** | 12 dəfə | 1074 dəfə |
| **ARB** | 26 dəfə | 3595 dəfə |
| **ARB 24** | 4 dəfə | 5478 dəfə |
| **Real TV** | 15 dəfə | 1340 dəfə |
| **İdman TV** | 16 dəfə | 1270 dəfə |
| **CBC Sport TV** | - | 1971 dəfə |
| **Baku TV** | - | 3064 dəfə |
| **Kanal S** | 2 dəfə | 3731 dəfə |
| **Dünya TV** | 9 dəfə | 1037 dəfə |
| **MTV** | 1 dəfə | 452 dəfə |
| **CƏMİ** | **167 dəfə** | **29563 dəfə** |

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə ötən ilin 3 may tarixində keçirilən “İctimai proseslər media müstəvisində” mövzusunda Forum çərçivəsində “Narkomanlığa qarşı mübarizədə mediadan düzgün istifadə” mövzusunda panel sessiya təşkil edilmişdir. Panel çərçivəsində Dövlət Komissiyasının İşçi Qrupunun, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyi və Səhiyyə Nazirliyinin səlahiyyətli nümayəndələrinin iştirakı ilə narkomanlığa qarşı mübarizə və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərin ictimai əhəmiyyəti, aidiyyəti dövlət qurumları ilə media subyektləri arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsinin vacibliyi, eyni zamanda görülən işlərin auditoriyaya effektiv şəkildə ötürülməsində medianın rolu barədə 30-dan çox media subyektinin iştirakı ilə geniş müzakirələr aparılmışdır.









Həmçinin, narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı yaranan problemlər haqqında vətəndaşlar arasında maarifləndirmə işinin daha səmərəli təşkili məqsədilə ölkə üzrə fəaliyyət göstərən 17 çap və 46 onlayn media subyektinə müvafiq tövsiyələr verərək, ümumilikdə 5129 maarifləndirici materialın dərc olunmasını təmin etmişdir.


Azərbaycan Dövlət İnformasiya Agentliyi
az ru en de fr es عربي 中文 Saytda axtarış

AZƏRTAC

RƏSMİ XRONİKA RƏSMİ SƏNƏDLƏR SİYASƏT İQTİSADİYYAT MƏDƏNİYYƏT HEYDƏR ƏLİYEV - 100 COP29 VİDEO

CƏMİYYƏT

Dövlət Komissiyası narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı statistikanı açıqlayıb

19.12.2024 [11:05] Çap et A+ A-

Bakı, 19 dekabr, AZƏRTAC

Bu ilin yanvar-noyabr aylarında hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində 8549 cinayət faktı aşkarlanıb. Onlardan 2837-si narkotik vasitələrin qanunsuz satışı, 5478-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 228-i narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 6-sı isə digər cinayətlərlə bağlı olub.

Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan məlumat verilib.

Bildirilib ki, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 6693 nəfər cəlb edilib, onlardan 16-18 yaşadək 2 nəfər,18-25 yaşadək 498 nəfər, 26-29 yaşadək 1012 nəfər, 30 yaş və ondan yuxarı isə 5181 nəfər təşkil edir. Həmin şəxslərdən 6497-si kişi, 196-sı qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 59 xarici ölkə vətəndaşından 25-i İran, 10-u Rusiya, 13-ü Türkiyə, 7-si Gürcüstan, 1-i Özbəkistan, 2-si Ukrayna, 1-i Birləşmiş Ərəb Əmirlikləri vətəndaşı olub. Xarici ölkə vətəndaşlarından ümumilikdə 212 kiloqram 424,217 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 235 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 406 kiloqram 149,481 qram narkotik vasitə və psixotrop maddə, 38807 ədəd metadon həbi, 1710 ədəd və 44 qram güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 313-ü qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 471 kiloqram 706,851 qram və 13220 ədəd metadon həbi narkotik vasitə, psixotrop maddə və 213,4 qram güclü təsir edən maddə müsadirə edilib.

2888 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 1 ton 895 kiloqram 031,5 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə 2024-cü ilin müvafiq dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 1209, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 321, narkotiklərin satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 798, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 66, digər növ cinayət faktların sayı 24, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 31 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi 315 kiloqram 383,968 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı isə 1073 nəfər azalıb.

Xəbəri sosial şəbəkələrdə paylaşın

Bizi sosial şəbəkələrdə izləyin

MƏN TURİST OLSAYDIM

SON XƏBƏRLƏR

İlahiyyat İnstitutu ilə Türkiyənin Doqquz Eylül Universiteti arasında anlaşma memorandumu imzalanıb
[10:42]

Bakıda "THE Avrasiya Universitetlərinin Sammiti" keçiriləcək
[10:38]

Azərbaycan Universitetində "Dünyada çay mədəniyyəti" mövzusunda tədbir təşkil edilib
[10:33]

Dövlət Dəniz və Liman Agentliyində Neft Dağılmalarına Hazırlıq üzrə Beynəlxalq Təşəbbüs təşkilatının nümayəndələri ilə görüş olub
[10:29]

Naxçıvanda "Kiber suverenlik" konfransı keçirilir
[10:28]

Bu gün Xalq rəssamı Tahir Salahovun anım günüdür
[10:25]

Ötən gün vətəndaşların bank kartlarından 7 min 500 manata yaxın pul oğurlanıb
[10:15]

Dünya bazarında qızıl və gümüş bahalaşıb
[10:10]

Dünya birjalarında neft bahalaşıb
[10:08]

Kənd təsərrüfatı nazirinin müavini Ucarda vətəndaşların müraciətlərini dinləyib, təsərrüfatlara baş çəkib
[10:07]

Azərbaycan nefti ucuzlaşıb
[09:52]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq

Azərbaycan Milli Antidopinq Agentliyi Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.23-1-ci yarımbəndinə uyğun olaraq, idmançılar, milli idman federasiyalarının tibbi personalı, məşqçilər və digər şəxslər üçün ümumilikdə 52 tədbirin keçirilməsini təmin etmişdir.



Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2024-cü ildə elan etdiyi qrant müsabiqəsi çərçivəsində "Sağlam həyat tərzinin təbliği", eləcə də "Narkomaniya və tütündən istifadəyə qarşı mübarizə ilə bağlı maarifləndirmə kampaniyalarının keçirilməsi" istiqaməti üzrə 11 qeyri-hökumət təşkilatı layihəsinə 93700 manat məbləğində maliyyə vəsaiti ayırmışdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.29-cu yarımbəndinin icrası ilə əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun və qeyri-hökumət təşkilatlarının birgə təşkilatçılığı ilə Bakı şəhəri, Yasamal rayonu üzrə 5 məktəbdə, Qəbələ Peşə Təhsil Mərkəzində, Lənkəran Milli Elmlər Akademiyasının Regional Elmi Mərkəzində və Lənkəran Tibb Kollecində, Masallı Gənclər Evində, Astara Pedaqoji Kolleci və Astara Gənclər Evində, Şirvan Gənclər Evində, Sabirabad Dövlət Sosial İqtisadi Kollecində və Neftçala şəhər M.Səfərov adına İnteqrasiya təlimi internat tipli gimnaziyada təşkil edilən maarifləndirmə tədbirlərində ümumilikdə 1000-ə yaxı n yeniye tmə və gənc iştirak etmişdir.









## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.10 və 4.4.11-ci yarımbəndlərinə uyğun olaraq, rayon və şəhər komissiyaları tərəfindən asudə vaxtın məzmunlu təşkili və narkotik vasitələrdən istifadənin zərəri ilə bağlı bir sıra işlər görülmüş, ərazi polis orqanları ilə birgə orta ümumtəhsil məktəblərində tədbirlər keçirilmiş, asudə vaxtın səmərəli təşkili istiqamətində rayon və şəhər gənclər evində, idman, mədəniyyət, incəsənət müəssisələrində müxtəlif görüşlər, dəyirmi masalar, sərgilər, idman yarışları və yazı müsabiqələri təşkil edilmişdir.






Həmçinin, aidiyyəti orqanlarla qarşılıqlı fəaliyyətin təmin edilməsi, qeyri-hökumət təşkilatlarının, könüllülərin, ictimai xadimlərin və din xadimlərinin bu istiqamətdə aktiv iştirakına şəraitin yaradılması istiqamətində bir sıra işlər görülmüş və məqsədyönlü tədbirlər həyata keçirilmişdir.





Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkomanlığa qarşı mübarizədə əlaqələndirmə işi gücləndirilmiş, hüquq mühafizə orqanları tərəfindən əldə edilən göstəricilərin aylıq və rüblük nəticələri təhlil edilərək qiymətləndirilmiş, narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili sistemli xarakter daşımış, müvafiq dövlət qurumlarının, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və marifləndirmə işinin aidiyyəti orqanlar tərəfindən birgə tədbirlər planları hazırlanaraq kompleks şəkildə təşkil edilməklə gücləndirilməsi təmin edilmişdir.






Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə həyata keçirilən tədbirlər və onların nəticələri barədə məlumatlılığın artırılması məqsədilə müvafiq razılaşmaya əsasən “İki Sahil” qəzetində rubrika açılmış və qrafikə uyğun olaraq aidiyyəti qurum lar tərəfindən təqdim olunan məqalələr hər həftənin şənbə günləri dərc edilmişdir.






Hesabat dövründə “26 iyun-Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü” ilə əlaqədar Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu aidiyyəti qurumlarla birlikdə:

- 20-30 iyun tarixlərində Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin elektron informasiya tablolarında “Narkomanlığa birlikdə y ox deyək” şüarının nümayişi;







- maarifləndirici videoçarxların Bakı, Gəncə və Sumqayıt şəhərlərinin mərkəzi küçə və prospektlərində mövcud olan elektron reklam lövhələrində, “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyətinin avtobuslarında olan monitorla  rda nü  mayişi;








- Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə sms maarifləndirmə layihəsi çərçivəsində 2023-cü il 20 iyun tarixindən başlayaraq sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı “Azərfon”, “Bakcell” MMC və “Azercell Telekom” MMC vasitəsilə ümumilikdə 9,9 milyon aktiv abunəçiyə sms bildirişinin göndərilməsi;







- Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC və Dövlət Komissiyasının İşçi Qrupu arasında imzalanmış tədbirlər planına müvafiq olaraq sosial şəbəkələrin bütün seqmentlərində #Narkomaniyayason və #StopNarkomaniya həştəqləri ilə 44 mindən çox poster, video və müxtəlif maarifləndirici materialların paylaşılması;









- şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən maarifləndirici silsilə tədbirlərin təşkili təmin edilmişdir.




## Maaarifləndirmə və Profilaktika sahəsində qarşıda duran vəzifələr

Beləliklə, ötən ilin yanvar-dekabr ayları ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 186 tədbir (128 maarifləndirici görüş, 43 təlim, 3 mədəni-kütləvi tədbir, 2 infotur, 1 rəsm müsabiqəsi, 7 sosial layihə, 1 velo yürüş və 1 marafon) təşkil edilmişdir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na uyğun olaraq, həmçinin rəy və təkliflər nəzərə alınmaqla hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli, 721 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Müvafiq Fərmana uyğun olaraq, Dövlət Proqramında qısa xülasə, qlobal trendlər, mövcud vəziyyətin təhlili, hədəf göstəriciləri, məqsədlər, prioritet istiqamətlər, maliyyələşdirmə mexanizmləri və tədbirlər planı öz əksini tapmışdır.

Cəzaçəkmə müəssisələrində anti-narkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən 2025-ci il üçün də birgə "Tədbirlər Planı" imzalanıb.

Narkotik asılılıq və onun fəsadlarına dair biliklərin artırılması məqsədilə könüllülər üçün müvafiq mövzuda təlimlər və seminarlar təşkil ediləcəkdir.

Gənclər arasında narkomanlığa qarşı təbliğat işinin gücləndirilməsi, onlar üçün infoturların təşkili, könüllülərinin narkotik asılılıq probleminə dair məlumatlılıq səviyyəsinin artırılması, həmçinin "Səyyar Gənclər Xidməti" layihəsi çərçivəsində Respublikanın regionlarında gənclərə narkotik vasitələrin insan orqanizminə mənfi təsiri və törətdiyi fəsadlara dair biliklərin artırılması məqsədilə təlimlərin keçirilməsi məqsədi ilə 2025-ci il ərzində görüləcək işlərə dair Azərbaycan Respublikası Gənclər Fondu ilə birgə Tədbirlər Planı imzalanıb.

Şagird və tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı intellektual müsabiqələrin keçirilməsi təşkil olunacaqdır.

# QEYD

# QEYD

# QEYD

**İLLİK HESABAT**

**2024**